# Azərbaycan-ABŞ münasibətlərinin Münxen mərhələsi

"Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində çoxsaylı görüşlər keçirdi. Həmsöhbətlərin müxtəlifliyinə baxmayaraq, bütün görüşlər qarşı tərəfin müraciəti əsasında baş tutdu ki, bu da Azərbaycanın və şəxsən İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzundan xəbər verir".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, Prezident İlham Əliyev Amerika tərəfinin müraciəti əsasında Münxendə ABŞ-nin dövlət katibi Entoni Blinkenlə də görüşüb.



Ötən ilin payızından ABŞ-nin bəzi bəyanatları və Azərbaycana yönəlik addımları ilə mənfi təzyiqlərə məruz qalan münasibətlərin normallaşması üçün, sözsüz ki, bu görüş lazım idi. Ötən ilin noyabrın 15-də Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində keçirilən dinləmələrdə ABŞ dövlət katibinin köməkçisi Ceyms O'Braynın qərəzli bəyanatlarını xatırlatmaq kifayətdir. Buna görə Entoni Blinkenin özü iki dövlət arasında yaranmış gərginliyi azaltmaq üçün İlham Əliyevə zəng etməli olmuşdu. Təbii ki, telefon danışığının üzbəüz danışığı əvəz edə bilməyəcəyini anlayan Amerika tərəfi Münxendə dövlət katibi ilə Azərbaycan Prezidenti arasında görüş təşkil etmək təşəbbüsü ilə çıxış etdi.

Deputat qeyd edib ki, görüş zamanı Entoni Blinken bu il COP29 iqlim forumunun Azərbaycanda keçirilməsini yüksək qiymətləndirib: "ABŞ rəsmisi qeyd etdi ki, ölkəsi bunu ciddi şəkildə dəstəkləyir. Ağ Ev bu tədbirin uğurlu keçməsi, eləcə də Azərbaycan və Ermənistan arasında davamlı və ləyaqətli sülhün təmin olunması üçün mümkün olan hər şeyi etmək istəyir. ABŞ bu istiqamətdə faydalı işlər görüb və bundan sonra da görəcək. Prezident İlham Əliyev də öz növbəsində Azərbaycanın sülh prosesinə sadiq olduğunu, sülh sazişinin tezliklə bağlanmasının milli maraqlarımıza cavab verdiyini qeyd edib. Maraqlıdır ki, Azərbaycan lideri ilə ABŞ dövlət katibi arasında söhbət son dərəcə səmimi olub. ABŞ-nin Azərbaycan ilə ikitərəfli əlaqələri yüksək qiymətləndirdiyini qeyd edən E.Blinken ölkələrimiz arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb. İlham Əliyev də ölkələrimiz arasında tərəfdaşlığın genişləndirilməsi üçün əlverişli şəraitin olduğunu söyləyib. Bununla yanaşı, dövlətimizin başçısı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesindən kənar, müstəqil şəkildə inkişaf etdirilməli olduğunu xüsusi vurğulayıb".

K.Bayramov deyib ki, Prezident İlham Əliyevin bu fikri andiçmə mərasimindəki "Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi beynəlxalq gündəmdən çıxmalıdır" sözlərinin davamı kimi dəyərləndirilə bilər. Yəni Bakı Vaşinqtonun qarşısında qırmızı xətləri açıq şəkildə çəkdi. Görünür, Entoni Blinken də bununla razılaşıb, çünki ABŞ ilə Azərbaycan arasında əməkdaşlıq və tərəfdaşlıq uzun tarixə malikdir. Ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi, ticarət, təhlükəsizlik, energetika və digər sahələrdə əməkdaşlıq perspektivləri var və Ermənistanı bu sahəyə sürükləmək əks effekt verir. Azərbaycan və ABŞ arasında ikitərəfli münasibətlərin inkişafı Ermənistanla Azərbaycan arasında gedən proseslərin girovuna çevrilməməlidir. Üstəlik, amerikalılar Bakı ilə İrəvan arasında münasibətlərdə normallaşma prosesinin adi qaydada getdiyini görməyə bilmirlər. İlham Əliyev aydın elan etdi: müharibə bitdi, Qarabağ problemi artıq yoxdur. Azərbaycanın Ermənistana qarşı başqa niyyəti, ərazi iddiası yoxdur. Biz regionda sülh və sabitliyin tərəfdarıyıq. Əgər ABŞ da bu məsələni dəstəkləsə, o zaman biz buna ancaq sevinəcəyik.

Deputat bildirib ki, Vaşinqtonun 30 il ərzində Bakı ilə qurduğu bərabərhüquqlu tərəfdaşlığı davam etdirmək istəyi həm də Münxen səfəri zamanı Amerika tərəfinin təklifi ilə digər rəsmilərinin Prezident İlham Əliyevlə ikitərəfli görüşlərin keçirilməsində açıq-aydın görünür: "Belə ki, İlham Əliyev ABŞ Prezidentinin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Con Kerri və qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi əlaqələndiricisi Amos Hoxşteyn ilə danışıqlar aparıb. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan-ABŞ münasibətlərinin inkişaf perspektivləri var. Amerika tərəfi Azərbaycanla əlaqələrin inkişafında birbaşa maraqlıdır".

K.Bayramov yekunda qeyd edib ki, həmsöhbətlərin nikbinliklə keçən Münxen görüşlərinin əvvəlki problemləri və anlaşılmazlıqları keçmişdə qoyduğunu güman etməyə imkan verir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***